COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!



**COP** *- İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*






**Bu ilin noyabrında keçiriləcək COP29-un əsas məqsədi zəngin ölkələr tərəfindən yoxsul ölkələrin iqlim dəyişmələrinə qarşı mübarizəsinə dəstək göstərməsi üçün yeni illik maliyyə hədəfini müəyyən etməkdir. İnkişaf etməkdə olan ölkələr iqlim dəyişmələri ilə mübarizədə daha böyük hədəflərə çatmaq üçün maliyyə dəstəyinə ehtiyac duyurlar. Onlar qeyd edirlər ki, maliyyə dəstəyi olmadan emissiyaların azaldılması ilə bağlı öhdəliklərini artırmaq onlar üçün çətin olacaq.**

# İqlim öhdəlikləri və logistika tədbirləri

Bu, xüsusilə qlobal iqlim dəyişmələrinin yaratdığı fəsadlardan ən çox əziyyət çəkən və az resurslara malik olan ölkələr üçün vacibdir. Zəngin ölkələr isə qlobal iqlim böhranının həllində daha böyük məsuliyyət daşıyırlar. İnkişaf etməkdə olan ölkələrin inkişafı və əhalisinin rifahı üçün iqlim dəyişmələrinin zərərlərini azaltmaq üçün lazımi maliyyə dəstəyi tələb edir. Konfransın bu kontekstdə qarşıya qoyduğu vəzifə maliyyə resurslarının ədalətli bölüşdürülməsi və yoxsul ölkələrə lazımi investisiyaların təmin olunması ilə bağlı razılaşmalar əldə etməkdir.

Qeyd edək ki, Azərbaycanda COP29-a hazırlıq işləri intensiv şəkildə davam edir və tədbirə yönəlmiş bir çox strateji təşəbbüslər həyata keçirilir. Ölkəmiz qlobal iqlim dəyişmələri ilə mübarizədə Paris Sazişi çərçivəsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək məqsədilə müvafiq addımlar atır. Azərbaycan hökuməti iqlim dəyişmələrinə uyğunlaşma və istixana qazı emissiyalarını azaltmaq istiqamətində strategiyalarını yeniləyir. Hazırda istixana qazı emissiyalarını 2030-cu ilə qədər 35 faizə qədər azaltmaq öhdəliyi üzərində işlər davam edir və COP29-a hazırlıq çərçivəsində bu hədəflərə çatmaq üçün yeni tədbirlər planı hazırlanır. Qarabağ və Şərqi Zəngəzur bölgələrində "yaşıl enerji zonası" layihələri həyata keçirilir, bu da ölkənin iqlim dəyişmələrinə qarşı mübarizədə əsas göstəricilərindən biri kimi təqdim ediləcək. Həmçinin COP29 öncəsi enerji sektorunun daha səmərəli işləməsi və karbon izinin azaldılması üçün texnoloji yeniliklər tətbiq olunur. Nəqliyyat və sənaye sektorlarında aşağı karbonlu texnologiyaların tətbiqi ilə bağlı pilot layihələr hazırlanır və bu istiqamətdə beynəlxalq təcrübədən istifadə olunur.

Hökumətin öz səylərini cəmiyyətin müxtəlif sektorları ilə paylaşması vacibdir. Qeyri-hökumət təşkilatları, biznes sektoru və hətta adi vətəndaşlar da prosesə cəlb olunurlar. İnsanlar iqlim dəyişmələri ilə bağlı maarifləndirilir və hər kəsin öz rolunu anlaması təmin olunur. Bu gün iqlim məsələsi təkcə hökumət və böyük şirkətlərin problemi deyil, hər birimizin gündəlik həyatına təsir edən məsələdir. Bu hazırlıqlar göstərir ki, Azərbaycan COP29-da həm milli, həm də qlobal səviyyədə ciddi mövqe tutmağı hədəfləyir. Ölkənin bərpaolunan enerji mənbələrinə keçid etmək və iqlim dəyişmələri ilə mübarizədə liderlərdən biri olmaq üçün yetərincə potensial var.

Bununla yanaşı, Bakıda COP29 çərçivəsində böyük ziyarətçi axınının effektiv idarə edilməsi və şəhər sakinlərinin rahat hərəkətinin təmin olunması üçün ciddi tədbirlər görülür. Bu tədbirlərdən biri paytaxtın bir sıra mərkəzi küçələrində xüsusi COP29 nəqliyyat zolaqlarının yaradılmasıdır. Bu zolaqlar konfrans iştirakçılarının və rəsmi qonaqların vaxtında və maneəsiz hərəkətini təmin etmək üçün nəzərdə tutulub. Ölkəmiz bu tədbirləri təkcə qonaqların deyil, həm də Bakıda yaşayan insanların gündəlik qayğıları məqsədilə həyata keçirir. Prosesdə müasir texnologiyalardan, xüsusilə də "ağıllı" nəqliyyat sistemlərindən və real vaxtda yol hərəkəti məlumatlarından istifadə olunması gözlənilir ki, şəhərdə sıxlığın qarşısı alınsın və hərəkət rahat olsun. Bundan başqa, noyabr ayında Bakıda nəqliyyat axınını rahat və effektiv idarə etmək məqsədilə şəhərin əsas hissələrində 14 nəqliyyat qovşağının yaradılması planlaşdırılır. Bu qovşaqların strateji şəkildə yerləşdirilməsi Bakı Stadionunun, metrostansiyaların, hotellərin və yaşayış komplekslərinin sıx olduğu əraziləri əhatə edir.

Beləliklə, həm tədbir iştirakçıları, həm də şəhər sakinləri Bakıda COP29 konfransı zamanı nəqliyyat sıxlığına məruz qalmadan rahat və vaxtında təyinat nöqtələrinə çata biləcəklər. Şəhərin nəqliyyat sisteminin "ağıllı" idarə edilməsi bu prosesin uğurla həyata keçirilməsini təmin edəcək. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan COP29-a həm ekoloji, həm də logistika baxımından tam hazırdır. Tədbirin uğurla keçirilməsi ölkəmizin qlobal iqlim gündəliyindəki rolunu möhkəmləndirəcək və davamlı inkişafa yönəlmiş strategiyalarımızı dünyaya nümayiş etdirmək üçün əhəmiyyətli platforma olacaq.



**Röya RÜSTƏMLİ,**
**"Respublika".**